"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".
Heydər Əliyev

Heydər Əliyev - xalq birliyi əbədidir!

AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır İctimai-siyasi qəzet | № 13 (1029) | 15 iyun 2018-ci il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

Moskvada Azərbaycan və Rusiya prezidentlərinin görüşü olub

İyunun 13-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

Dövlət başçıları görüşdə çıxış ediblər.

Rusiya Prezidenti Vladimir PUTİN dövlətimizin başçısını salamlamışdır

Azərbaycan Prezidenti İlham ƏLİYEV görüşdə çıxış edərək demişdir:

- Sağ olun, hörmətli Vladimir Vladimiroviç. İlk növbədə, Sizi ötən dövlət bayramınız - dünən qeyd olunmuş Rusiya Günü münasibətilə təbrik etmək istərdim. Futbol üzrə dünya çempionatına hazırlığın uğurla başa çatması münasibətilə də təbrik etmək istəyirəm. Bu, dünyanın əsas idman hadisəsidir. Əminəm ki, çempionatın özü də çox uğurla keçəcək, bütün qonaqlar razı qalacaqlar.

Bizim münasibətlərimizə gəldikdə, mən də onların inkişafından məmnun olduğumu bildirmək istərdim. Avqustun sonunda Rusiyaya səfərə dəvətinizə görə təşəkkür etmək istərdim. Lakin bu gün də bizim kifayət qədər geniş gündəliyimizdəki cari məsələlərə dair fikir mübadiləsi aparmaq üçün yaxşı imkan var.

Düşünürəm ki, bizim daimi xarakter daşıyan müntəzəm əlaqələrimiz münasibətlərimizə böyük təkan verir. Biz bunun yaxşı nəticələrini görürük. Bizim qarşılıqlı siyasi fəaliyyətimiz çox yüksək səviyyədədir. Biz etibarlı dostlar və tərəfdaşlar, strateji tərəfdaşlarıq. Siz qeyd etdiyiniz kimi, iqtisadi sahədə dinamika ötən il də, bu il də çox müsbətdir. İqtisadi əməkdaşlığın genişləndirilməsinə dair planlar var. Biz "Şimal-Cənub" layihəsinin həyata keçirilməsinin artıq konkret nəticələrini görürük. Artıq Azərbaycan vasitəsilə Rusiyadan yükdaşımalar artır, bu da bizim fəaliyyətimizin müsbət nəticəsidir. Hesab edirəm ki, bütün sahələrdə, humanitar sahədə bizim münasibətlərimiz, ümumiyyətlə, nümunəvidir. Belə ki, yaxşı dinamikaya, yaxşı nəticələrə nail olduğumuza görə şadam və gələcəyə, əlaqələrimizin möhkəmlənməsinə ümidlə baxırıq.

Dəvətinizə görə bir daha sağ olun.

Prezident İlham Əliyev Moskvada futbol üzrə dünya çempionatının təntənəli açılış mərasimində iştirak edib

Moskvadakı "Lujniki" stadionunda futbol üzrə növbəti dünya çempionatının təntənəli açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak ediblər.

Azərbaycan Respublikasının Baş Prokuroru Zakir Qaralov Ağstafada vətəndaşları qəbul edəcək

2018-ci il iyun ayının 22-də, saat 10:00-da Azərbaycan Respublikasının Baş Prokuroru cənab Zakir Qaralov tərəfindən Ağstafa rayon prokurorluğunun inzibati binasında vətəndaşların qəbulu keçiriləcəkdir.

Qəbula gəlmək istəyən vətəndaşların öncədən Ağstafa rayon prokurorluğunda qeydiyyatı aparılır.

Qəbula gəlmək istəyən vətəndaşların qaldırdıqları məsələlər yalnız prokurorluq orqanlarının səlahiyyətinə aid olmalıdır.

15 İyun-Milli Qurtuluş Günü izdihamla qeyd olundu

15 iyun Milli Qurtuluş Günü münasibəti ilə Heydər Əliyev mədəniyyət və istirahət parkında geniş bayram şənliyi keçirildi. Ümumrayon tədbirində Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, rayonun idarə, müəssisə və təşkilatlarının kollektivləri, rayon ərazisində yerləşən hərbi hissələrin əsgər və zabitləri, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdi.

Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad etdilər. Heydər Əliyev adına mədəniyyət və istirahət parkının mərkəzində quraşdırılmış səhnənin önündə tədbiri giriş sözü ilə Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev açdı. Qeyd olundu ki, 1993-cü ilin iyun ayının 15-i Azərbaycan tarixinə milli qurtuluş günü kimi daxil oldu və dövlətçiliyimizi yox olmaq təhlükəsindən qurtardı. Heydər Əliyev xilaskar missiyası ilə respublikanın müstəqilliyini qorudu, ölkədə tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.

Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır. Milli qurtuluş fəlsəfəsi sözün geniş mənasında Azərbaycanın mövcudluğunu, onun ən böyük tarixi nailiyyətini-müstəqilliyini təmin etdi. Həmin gün xalqın inadlı tələbi ilə 2-ci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev Ali sovetin sədri seçildi. Bununla da uzun illər davam edən gərginlik və qarşıdurma səngidi və ölkə vətəndaş müharibəsi və parçalanma təhlükəsindən xilas oldu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında ulu öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi

və sonrakı illərdə onu həyata keçirdi.

Bu gün də ölkəmiz Ulu Öndərimizin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə daha da çiçəklənir və inkişaf edir. M. Quliyev dərin məzmunlu çıxışının sonunda Milli Qurtuluş Günü münasibəti ilə tədbir iştirakçılarını və eləcə də bütün ağstafalıları bir daha təbrik etdi, hamıya xoşbəxtlik, əminamanlıq və cansağlığı arzuladı.

Bayram tədbiri yerli mədəniyyət və incəsənət nümayəndələrinin təqdimatında geniş konsert proqramı ilə davam etdirildi.

Xalqı öz arxasınca aparan lider

Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə qayıtması xalqımızın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil olmuşdur.

1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə dövlət müstəqilliyini elan etdi. Təəssüf ki, müstəqilliyin ilk illərində dövlətin idarəçilik sükanı arxasında xalqın qüvvələrini bir yerə cəmləşdirə biləcək qüdrətli bir lider yox idi.1993-cü ilin ortalarına doğru hakimiyyət böhranı getdikcə daha kəskin xarakter alırdı. Bu dövrdə hakimiyyətdə olan qüvvələr öz sərişdəsiz əməlləri ilə Azərbaycanın müstəqilliyi üçün təhlükə yaratdılar. Həmin vaxtları Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı. Gənc Respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə gedirdi. Həmin dövrdə Azərbaycan ərazilərinin işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin günbəgün ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir Liderə ehtiyac olduğunu şərtləndirirdi.

Heydər Əliyev 1990-cı il iyulun 20-də Moskvadan Bakıya, iyulun 22-də isə doğulduğu Naxçıvana gəldi.1990-cı ilin noyabr ayının 17-də 12-ci çağırış Naxçıvan MSSR-in Ali Məclisinin ilk sessiyası Heydər Əliyevin sədrliyi ilə keçirildi. Həmin sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikası, Naxçıvan MSSR Ali Sovetinin adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması, Azərbaycan Respublikasının milli istiqlal rəmzi olan üçrəngli dövlət bayrağının bərpası, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərarlar qəbul olundu. 1991-1993-cü illər arasında ümummilli lider Heydər Əliyev Naxçıvandakı hakimiyyəti dövründə Muxtar Respublikanı geniş tərəqqi yoluna çıxarmağı bacardı.

Cəmiyyətin bütün təbəqələri də əmin idi ki, yenicə müstəqillik qazanmış ölkəni düşmüş olduğu ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir.Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. Əslində, bu, bütün xalqın ürəyinin səsi idi. Buna görə də, ölkəni yaranmış ağır situasiyadan çıxarmaq üçün bir qrup ziyalı Naxçıvana gedərək Heydər Əliyevi Bakıya - siyasətə qayıtmağa dəvət etdilər. Xalqımızın mütləq əksəriyyətinin tələbi və təkidi ilə ümummilli liderimizin 1993-cü il iyun ayının 15-də ölkəmizə rəhbərliyə gəlməsi ilə Azərbaycanın həyatında Milli Qurtuluş epopeyası başladı.

Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi və iyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. 1993-cü ildə xalqın xahiş və tələbi ilə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, dövlət müstəqilliyi qorunub saxlandı, silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə son qoyuldu, ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı.

(Davamı gələn sayımızda)

Aslan Surxayev
Ağstafa rayon prokuroru baş ədliyyə müşaviri

Ölkə rəhbərliyinin müvafiq tapşırığına uyğun olaraq Ağstafa rayonu üçün ənənəvi məşğuliyyət sahəsi olan baramaçılığın yenidən bərpası və inkişafı üçün bütün zəruri şəraitlər yaradılmışdır. Ötən illərdə olduğu kimi, bu il də Qax rayon Damazlıq ipəkçillik stansiyasından gətirilmiş barama toxumu qutuları bu işlə məşğul olmaq istəyənlərə pulsuz paylanılmışdır. Cari ildə Ağstafa kümçülərinə paylanılmış 104qutu ipəkqurdu toxumu tələb olunan nüvafiq aqrotexniki şərtlərlə təchiz olunmuş məntəqələrdə bəslənilmişdir.

Barama məhsulunun tədarükünə başlanıldı

Artıq bir neçə gündür ki, rayonda barama məhsulunun tədarükünə başlanılmışdır. Bu il Ağstafada 4,0 tondan artıq barama məhsulunun əldə olunması nəzərdə tutulur. Həm ötən ildəkümçülərin təcrübələrinin artması, münbit şəraitin yaradılması və həm də bu sahədə çalışmaq istəyənlərin sayının artması onu deməyə əsas verir ki, növbəti illərdə bu rəqəmlər artan dinamika ilə inkişaf edəcəkdir.

Hazırda baramaçıların min bir zəhmətlə yetişdirdikləri məhsulun tədarükü davam etməkdədir.

Vurğun qəsəbəsində səyyar görüş

Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev vətəndaşların növbəti səyyar qəbulunu Vurğun qəsəbəsində keçirdi. Görüşdə Rayon icra hakimiyyəti aparatının məsul işçiləri, rayonun müvafiq idarə, müəssisə və təşkilatlarının rəhbərləri, eləcə də qəsəbə ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.

Tədbiri giriş sözü ilə açan icra başçısı ölkəmizin sürətli sosial-iqtisadi inkişafından, mövcud ictimai-siyasi sabitlikdən, dövlətimizin siyasi arenadakı nüfuzundan geniş bəhs etdi. O, daha sonra Ağstafada son illərdə həyata keçirilən geniş miqyaslı abadlıq-quruculuq işlərindən, reallaşdırılan sosial-infrastruktur layihələrdən danışdı.

Səyyar görüşdə iştirak edən qəsəbə sakinləri də dinlənildi. Görüş iştirakçılarından Novruz Yolçuyev qəsəbə sakinlərinin içməli su təminatının yaxşılaşdırılmasını, Aygün Nağıyeva qəsəbə tam orta məktəbin yaxınlığında bir ədəd yeni subartezian quyusunun qazılmasını xahiş etdi.

Görüşdə iştirak edən sakinlərə bildirildi ki, cari ildə qəsəbəyə Ağstafa içməli su şəbəkəsindən içməli su xəttinin çəkilməsi nəzərdə tutulur. Həmçinin ölkə başçısının müvafiq sərəncamına uyğun olaraq qazılması nəzərdə tutulan subartezian quyularından birinin məhz Vurğun qəsəbə ərazisində qazılması planlaşdırılmışdır.

Vurğun qəsəbə ictimaiyyətnin nümayəndəsi Xuraman Sadıqova çıxış edərək qəsəbə əhalisi adından qəsəbəyə və ümumilikdə Ağstafa rayonuna göstərilən yüksək dövlət qayğısına görə ölkə başçısı cənab İlham Əliyevə dərin minnətdarlığını bildirdi.

Rayon icra hakimiyyətinin başçısı sakinlərin qaldırdıqları bütün məsələlərin həll edilməsi istiqamətində aidiyyəti üzrə idarə, müəssisə rəhbərlərinə konkret tapşırıqlar verdi.

Ölkə rəhbərliyinin müvafiq tapşırıqlarına uyğun olaraq son illər Ağstafa rayonunda abadlıq-quruculuq işləri geniş vüsət almışdır. Rayonda reallaşdırılan sosial infrastruktur layihələr çərçivəsində əhalinin asudə vaxtlarının daha səmərəli təşkili və maksimum rahat istirahət etmələri üçün müasir tələblərəcavabverən yeni parklar salınmış, eləcə də mövcud istirahət vəmədəniyyət parkları əsaslı şəkildə yenidən qurularaq ağstafalılarınistifadəsinə verilmişdir.

Ağstafanın mədəniyyət və istirahət parklarında təmir-bərpa işləri aparılır

Rayonda fəaliyyət göstərən bütün parkların saxlanılması və qorunması üçün müvafiq tədbirlər icra olunur. Hazırda Ağstafa şəhəri Heydər Əliyev adına mədəniyyət və istirahət parkında, eləcə də ölkəmizin xəritəsi üzərindətəsvir olunmuş tariximizi və coğrafiyamızı özündə əks etdirən Miniatür Azərbaycan parkında təmir-bərpa işləri həyata keçirilir.

Heydər Əliyev adına parkda fontanlar rekonstruksiya edilir. Xüsusi sualtı işıqlandırma sistemi ilə effekt veriləcək rəngarəng təbii qaya daşları fontanları estetik baxımdan daha maraqlı edəcəkdir. Fontanların su axını da yerləşdirilmiş qaya daşlarına uyğun tənzimlənməsi sakinlərdə bir növ təbii şəlalə təəssüratı yaradacaqdır. Bu istiqamətdə Miniatür Azərbaycan parkında da aparılan işlər çərçivəsində parka xüsusi gözəllik verən Xəzər dənizi fonunu əks etdirən banerlər yenisi ilə əvəz olunur. Həmçinin parkda yerləşən miniatür tarixi abidələr restavrasiya edilir. Yaxın günlərdə parklarda aparılan işlər yekunlaşdırılacaqdır.

Məktəblərdə son zəng çalındı

Daha bir dərs ili arxada qaldı. 2017-2018-ci dərs ili ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da yaddaqalan hadisələrlə yekunlaşdı. Yola saldığımız dərs ilində rayonumuzda gənc nəslin təlim-tərbiyəsi işinin daha da yaxşılaşdırılması üçün məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsində uğurlu addımlar atılır. Bu gün rayonumuzun demək olar ki, əksər yaşayış məntəqələrində tədrisin keyfiyyətinin müasir tələblər səviyyəsində təşkil edilməsi üçün hər cür şərait vardır.

Rayonun nankor ermənilərlə həmsərhəd olan Köhnə Qışlaq kəndində ən müasir tipli hər cür şəraiti olan məktəb binasıın istifadəyə verilməsi isə bütün ağstafalıların böyük sevincinə səbəb oldu.

Yola saldığımız tədris ilində rayonun məktəblərində təhsil alan şagirdlərdən 742 nəfəri 11-ci sinfi bitirərək məktəblə vidalaşdı. İyun ayının14-də bütün ümumtəhsil məktəblərində son zəng çalındı. Həmin gün Rayon icra Hakimiyyətiaparatının, Rayon təhsil şöbəsinin məsul işçiləri, müəllimlər, valideynlər, şagirdlər son zəng mərasimində iştirak etdilər. Tədbirlərdə ölkədə təhsilin inkişafından, bu sahəyə göstərilən diqqət və qayğıdan geniş bəhs edildi.

Bütün ümumtəhsil məktəblərində olduğu kimi, şəhərimizdəki 1 və 2 saylı, Dağkəsəmən kənd 1 saylı tam orta məktəblərində son zəng tədbiri daha maraqlı və şən keçdi.

Dağkəsəmən kənd 1 saylı tam orta məktəbində keçirilən mərasimdə məktəbin direktoru Mahir Nəbiyev çıxış edərək son illər direktor olduğu məktəbin maddi-texniki bazasının möhkəmləndirilməsinə göstərilən dövlət qayğısından danışdı və qeyd etdi ki, bu gün rəhbəri olduğu həmin tədris müəssisəsi rayonun ən nümunəvi təlim-tərbiyə ocağıdır. O, qeyd etdi ki, məktəbdə təhsil alan 529 nəfər şagirddən 40 nəfəri cari dərs ilində məktəblə vidalaşır. Dərs ilinin sonunda yeni qaydalara əsasən məktəbin 11-ci sinfində təhsil alan şagirdlərin ali və orta ixtisas müəssisələrinə qəbul olmaq üçün verdikləri imtahanlar daha sevindirici olmuş, məzunlardan 17 nəfəri yetərli, 9 nəfəri isə daha yüksəkbal toplamışdır.

Son zənggünü şəhərdəki 2 saylı tam orta məktəbində keçirilən tədbir də yaddaqalan oldu. Məktəbin direktoru Vəfa Tağıyeva tədbir iştirakçıları qarşısında çıxış edərək yola saldıqları dərs ilində görülmüş işlər barədə ətraflı məlumat verdi. O, göstərdi ki, 11-ci sinfi bitirən 66 şagirddən 32nəfəri ali məktəblərə qəbul olmaq üçün keçirilən birinci turda yetərli bal yığmış, 10 nəfər məzun isə ən yüksək bal toplamışdır.



Şəhər 1 saylı tam orta məktəbində də son zənggünü şən və maraqlı keçmişdir. Məktəbin şagirdləri 11-ci sinfin şagirdlərinə tər çiçək dəstələri vermiş, onların qarşısında şeir söyləmiş və bir yerdə rəqs etmişlər. Bütün bunlar onu göstərir ki, rayonda gənc nəslin təlim-tərbiyəsinə göstərilən dövlət qayğısı öz müsbət bəhrəsini verir. Məktəbli gənclər onlara göstərilən diqqət və qayğıya təhsildə göstərdikləri nailiyyətlərlə cavab verirlər.

İ. Əliyev

Ağstafa Aqrar-Sənaye Kombinatında yüksək keyfiyyətli un hazırlanır

sal etdiyi əla növ, birinci növ, qara növ un məhsulları ən yüksək keyfiyyətli taxıl növündən hazırlanır.

Müəssisənin rəhbərliyinin əsas məqsədlərindən biri də Ceyrançöl brendi adı altında istehsal etdiyi yüksək keyfiyyətli məhsulla müştərilərdə dəyər yaratmaqdan ibarətdir. Artıq burada istehsal olunan məhsullar alıcıların diqqətini cəlb edir.

Əziz ağstafalılar, əgər Ceyrançöl brendi adı ilə satılan un və toxumluq taxıl məhsulları almaq istəyirsinizsə şəhərimizdəki ticarət şəbəkələrinə üz tutun.

Ağstafa Aqrar-sənaye kombinatı MMC Azərbaycanın ən böyük kənd təsərrüfatı texnikası ilə təchiz olunmuş sənaye müəssisələrindən biridir. Kombinatın əksər sahələrində tikinti-quraşdırma işləri başa çatdırılsa da, bəzi sahələrdə abadlıq işləri davam etdirilir. Artıq xeyli vaxtdır ki, burada un və yüksək keyfiyyətli toxumluq dənli bitkilər istehsalına başlanılmış və həmin məhsullar ölkəmizin hər yerində satışa çıxarılmışdır. Məhdud Məsuliyyətli Cəmiyyətin Ceyrançöl brendi adı altında istehsal olunan əla növ un, birinci növ un, qara növ un məhsulları ən yüksək keyfiyyətli taxıl növündən hazırlanır.

Onlar "Əlvida bağça" dedilər

Gələcək nəslin sağlam və gümrah böyüməsi, onların təlim-tərbiyəsinin yüksək səviyyədə təşkil olunması həmişə diqqət mərkəzində olmuş və bu ənənə bu gün də davam etməkdədir. Son illər ümumtəhsül məktəblərində, uşaq tərbiyə müəssisələrində aparılan yenidənqurma, abadlıq işləri buna parlaq misaldır. Belə məqsədyönlü işlərdən biri də şəhərimizdəki 2 saylı uşaq bağçası-körpələr evində aparılmış, bağçada uşaqların sağlam və gümrah böyümələri üçün hər cür şərait yaradılmışdır. Məhz bunun nəticəsidir ki, bu müəssisəyə uşaqlarını etibar edən valideynlər dövlətimizdən, bağçanın işçilərindən həmişə razılıq edirlər. Bu gün bağçada 75 usaq vardır ki, onların təlim tərbiyəsi ilə 8 nəfər tərbiyəçi məşğul olur. Bir neçə gün bundan əvvəl uşaqların valideynləri ilə birlikdə burada yaddaqalan böyük bir tədbir keçirildi. Ənənəvi olan "Əlvida başça" tədbirində iştirak edən uşaqlardan 28 nəfəri bağça ilə vidalaşdı və yeni həyata-məktəb həyatına qədəm qoydu.

Şən musiqi sədaları altında keçən tədbirdə iştirak edən uşaqlar şeir söylədilər, mahnı oxudular və rəqs etdilər. Bağçanın tərbiyəçilərindən Sultan Vəliyeva, Ceyran Məmmədova, Simuzər Musayeva isə hamıdan çox sevindi və qəhərləndi. Çünki onların bir neçə ildir ki, böyütdükləri, tərbiyə etdikləri uşaqlar bağça ilə vidalaşırdılar.

Tədbirdə Rayon icra hakimiyyətinin məsul işçisi Əziz Məsmalıyev iştirak edirdi. O, uşaqlar qarşısında çıxış edərək bütün uşaqlara şən, xoşbəxt, sağlam həyat arzuladı, bağça ilə vidalaşan uşaqlara uğurlar dilədi.

Q.Qurbanov

Kim işləmək istəyirsə!..

Bu gün böyük inam və iftixar hissi ilə demək olar ki, Ağstafa ölkəmizin sənaye şəhərlərindən birinə çevrilmişdir. Çox qısa bir vaxtda şəhərdə dörd böyük sənaye müəssisəsi inşa olunmuşdur. Onlardan biri də KARVAN-L EKO sənaye parkıdır. Burada istehsal olunan andezit daşlar, plastik kanalizasiya boruları, plastik qapı-pəncərələr ölkəmizin hər yerində satışa çıxarılmışdır.

Sənaye kombinatında istehsal sahələrinin genişləndirilməsi rayonun iqtisadiyyatının daha da inkişaf etdirilməsinə müsbət təsir göstərmiş, əhalinin maddi rifahhalının yaxşılaşmasında mühüm rol oynamışdır. Hazırda müəssisədə tikinti-yenidənqurma işləri sürətlə davam etdirilir. Müəssisədə keramika, kərpic istehsalı sexlərində işlər artıq yekunlaşmaq üzrədir. Bütün bunlar kombinatda yeni iş yerlərinin yaradılmasına böyük zəmin yaratmışdır. Əgər kim işləmək itəyirsə, kombinata müraciət edə bilər. Hazırda kombinatda 100-ə yaxın boş iş yeri vardır.

Sərhəd kəndində karate-do idman yarışı keçirildi

Bu günlər Tatlı kəndində 15 iyun Qurtuluş Gününə həsr olunmuş karate-do üzrə Ağstafa açıq birinciliyi keçirilmişdi. Yarışa start verilməzdən əvvəl Karate-do Federasiyasının Ağstafa rayon üzrə təmsilçisi Namiq Həsənov çıxış edərək 15 iyun Qurtuıuş Gününün tarixi əhəmiyyətindən geniş danışdı və sonra yarışa start verildi.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Qazax, Tovuz və Ağstafa rayonlarının idmançıları iştirak edirdilər. 10 çəki dərəcəsində 100-ə yaxın idmançının qatıldığı bu yarışda 20 kiloqram çəkidə İsmayıl Əliyev, 25 kiloqram çəkidə Ənvər Cəlili, 30 kiloqram çəkidə Cavid Əsgərov, 35 kiloqram çəkidə Mərdan Mehdiyev, 38 kiloqram çəkidə Qazax idmançısı Nihat Nəcəfov, 40 kiloqram çəkidə Fəxrəddin Rəhimov, 50 kiloqram çəkidə Əsgər Hüseynzadə, 45 kiloqram çəkidə Həmid Məhərrəmli, 33 kiloqram çəkidə Zakir Məhərrəmli yarışın qalibi oldular. Yarışın sonunda qaliblər mükafatlandırıldı və onlara diplom və medallar verildi.

Elan

Köçvəlili kənd sakini Əliyev Orxan Muxtar oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-478 nömrəli (kod 50200018) Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Böyük-Kəsik kənd sakini, mərhum Xəlilov Həmid Məmməd oğlunun adına olan 108 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Dağkəsəmən kənd sakini Allahverdiyeva Validə Abbas qızının adına olan pay torpağının mülkiyyətə verilməsinə dair 198 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Allah rəhmət eləsin!

Ağstafa Aqrar-sənaye kombinatı MMC-nin kollektivi iş yoldaşları Hikmət Məmmədova, atası

Namiq Məmmədovun

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

* * *

"Ağstafa" qəzetinin baş redaktoru İbrahim Əliyev Ağstafa Aqrar-sənaye kombinatı MMC-nin işçisi Hikmət Məmmədova atası,ictimaiyyət arasında böyük hörmət və nüfuz qazanmış həkim

Namiq Məmmədovun

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR:

İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
"Ağstafa" qəzetinin jurnalist kollektivi

Şəadətnamə № 308

Redaksiya heyəti

L.Eyyubova, L.İsayeva, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.

Ünvan:
Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000